**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA SƏNAYE KLASTERLƏRİNİN YARADILMASI VƏ MÜASİR İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5309.01- Sənayenin təşkili və dövlət siyasəti

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Sahib Raiq oğlu Rəhimli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət idarəetməsi və menecment” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Xatirə Mail qızı Hüseynova**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Vilayət İbrahim oğlu İsmayılov**

iqtisad elmləri doktoru, professor
**İlham Alıcı oğlu Aslanzadə**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Sədaqət Vəli qızı İbrahimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) nəzdində fəaliyyət göstərən BFD 4.21 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru,professor
**Gülənbər Arif qızı Əzizova**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Sahib Məmməd oğlu Məmmədov**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, dosent
**Hənifə Alhüseyn oğlu Cəfərli**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya iqtisadiyyatının müasir hadisələri sırasında klasterləşmə yeni, daha təkmil iqtisadi əməkdaşlıq formasında regionların və sənaye sahələrinin fəal iqtisadi inkişafına yönəlmiş dövlətin daxili sosial-iqtisadi siyasətinin aparıcı və səmərəli istiqamətlərindən biridir. Dünya ölkələrində sənaye siyasətinin formalaşmasında klaster yanaşması 1980-1990-cı illərdən tətbiq edilir. Bu gün o, təkcə sənaye siyasətinin iqtisadi artım, onun struktur dəyişiklikləri, modernləşdirilməsi məqsədlərinə nail olmaq üçün güclü vasitə deyil, həm də regional və innovativ inkişafın, müəssisələrin daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasının alətidir. Klaster yanaşmasına əsaslanan sənaye siyasəti dövlətin klaster siyasəti kimi təsnif edilir və dünyanın aparıcı dövlətləri tərəfindən səmərəli şəkildə tətbiq edilir.

Azərbaycan sənayesinin klasterləşdirilməsi prosesi ölkənin iqtisadi fəaliyyəti subyektlərinin sahəvi, regional və milli iqtisadi və ictimai maraqlarının həyata keçirilməsi və iqtisadi qarşılıqlı əlaqə və inkişafın müasir Avropa formalarının tətbiqi ehtiyacı ilə şərtlənir.

Yerli klasterlərin formalaşmasının bir xüsusiyyəti onların diqqətinin neft-qaz sənaye kompleksi, yüngül sənaye, tikinti, aqrar-sənaye kompleksi sahələrinə yönəldilməsidir, Avropa ölkələri üçün prioritet isə maşınqayırma, biofarmakologiya, elektronika və informasiya texnologiyaları sahələrində yüksək texnologiyalı innovasiya klasterlərinin inkişafıdır. Qlobal iqtisadi inkişafın hazırkı mərhələsində klasterləşmə istehsalın kooperasiyası, ixtisaslaşması və təmərküzləşməsi, innovativ fəaliyyətin aktivləşdirilməsi, yeni texnologiyaların tətbiqi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması hesabına sənayenin dinamik inkişafı vasitəsi kimi geniş istifadə olunur və böyük əhəmiyyət kəsb edir.

Sənaye inkişafına klaster yanaşmasının nəzəriyyəsi və praktikası göstərir ki, bu problemin həyata keçirilməsində universal metodlar mövcud deyil. Buna görə də sahələrin və bölgənin xüsusiyyətlərini nəzərə alaraq metodologiya və formalaşma üsullarının hazırlanması, sahələrarası təsərrüfat sistemin yaradılmasına klaster yanaşması aktual bir vəzifədir.

Sənayenin klasterləşməsi sahəsində yeni təşkilati, hüquqi və iqtisadi mühitə müasir dövrdə böyük ehtiyac var, hansı ki, bunun sayəsində rəqabətə davamlı və yüksək texnoloji sənaye məhsullarının bazara çıxarılması sürətləndirilə bilər. Ölkəmizin bir çox bölgəsində bunun üçün zəruri ilkin əsaslar mövcuddur. Sənaye müəssisələrinin və eyni profilli tədqiqat və təhsil müəssisələrinin potensialının dövlətin strateji proqramlarının məqsədlərinə uyğun səfərbər olunması və inkişaf etdirilməsi günümüzün aktual tələbidir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və innovativ inkişaf problemi regional səviyyə də daxil olmaqla, klasterləşmə əsasında sənaye istehsalının inkişafı və təşkili ilə birbaşa əlaqəlidir. Son illərdə klasterləşdirmə problemlərinin tədqiqinə ciddi diqqət yetirilir. Lakin demək olar ki, bu sahədə tədqiqatların istiqaməti əsasən konyunktur meylləri ifadə edir və daha çox informativ xarakter daşıyır. Sənaye sferasında klasterləşmə proseslərinin sistemli yanaşmada və milli iqtisadi maraqlar əsasında öyrənilməsi elmi tədqiqat istiqaməti olaraq dissertasiya işinin aktuallığını göstərir.

Müxtəlif sənaye sahələrində klasterlərin formalaşması və inkişafının əsas ilkin şərtləri, təşkilati, iqtisadi və metodoloji problemləri A.Marşal, M.Porter, Donald A.Hay, Derek J.Morris, S.Rosenfeld, D.Erol, K.Yildirim, D.P.Barsukov, V.S.Kudryaşov, M.M. Dvoryaşina, M.Ann, M.Trippl, M.Grillitsch, A.Isaksen, T.Sinozic, H.Qian, H.Kostajnica, D.Ionescu, V.L.Abaşkin, D.İ.Babanski, E.A.Belousova, İ.S.Ferova, İ.V.Pilipenko, E.Y.Somova, M.Y.Quliyev, V.P.Tretyak, S.V.Artyomov, E.A.İslankina və s. kimi xarici iqtisadçıların elmi əsərlərində tədqiq edilmişdir və klaster fəaliyyətinə əsas elmi yanaşmalar formalaşdırılmışdır. Qeyd olunan nəzəri tədqiqatçıların elmi əsərləri əsas etibarı ilə bazar iqtisadiyyatının inkişaf səviyyəsinin yüksək olduğu ölkələrdə klasterlərin formalaşması proseslərini və nəticələrini əks etdirir.

Sənaye siyasəti və klaster fəaliyyətinin ayrı-ayrı məsələlər Azərbaycan alimlətindən T.N.Əliyev, T.H.Hüseynov, X.M.Hüseynova, Q.S.Süleymanov, A.D.Hüseynova, U.K.Ələkbərov, A.A.Quliyev, A.Ə.Əliyeva, T.M.Əliyeva, S.R.Məmmədova, V.M.Əzimov, S.C.Cəlilova, M.Y.Quliyev, F.X.Kərimli,

Z.M.Mürsəlzadə, İ.Ş.Rüstəmov, L.V.Zeynallı, R.H.Qarayev, və başqalarının tədqiqat əsərlərində araşdırılmışdır. Lakin sənayenin klasterləşməsi problemi ayrıca elmi-nəzəri tədqiqat problemi kimi öyrənilməmişdir. Bu sahədə müasir sənaye inkişafının problemlərinin sistemli araşdırılması elmi və praktiki cəhətdən əhəmiyyət daşıyır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti – emaledici sənaye sferasında iqtisadi klasterləşmə prosesləridir. Tədqiqatın predmeti – emal sənayesində klasterləri və kooperasiya şəbəkələrini formalaşdıran elementlər arasında qarşılıqlı əlaqələrin xüsusiyyətləri və onların inkişaf meylləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi sənaye klasterlərinin yaradılması və inkişafına dair nəzəri-metodoloji prinsipləri və elmi-praktiki və sistemli yanaşmaları əsaslandırmaqdan, eləcə də sahələrarası əlaqələrin təşkilati-iqtisadi forması kimi klasterləşmə proseslərinin inkişaf istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

Göstərilən məqsədlər aşağıdakı tədqiqat vəzifələri ilə konkretləşdirilir:

-postindustrial informasiya iqtisadiyyatının formalaşması şəraitində firmalar-arası, sahələrarası və bölgələrarası inteqrasiyanın bir forması kimi klasterləşmənin əsas formalarını və üstünlüklərini göstərmək;

- sosial-iqtisadi təhlükəsizliyin müxtəlif komponentlərinin və milli və regional iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində klasterlərin rolunu müəyyən etmək;

- sahələrarası inteqrasiya forması olaraq sənaye klasterlərinin effektiv qarşılıqlı təsir üsullarını nəzəri cəhətdən əsaslandırmaq;

- regional və regionlararası innovasiya klasterləri sisteminin modelini və onların elmi- istehsal kompleksləri kimi inkişaf yollarını müəyyən etmək;

- kadrların hazırlanması, yenidən hazırlanması və davamlı peşə hazırlığı mərkəz-lərinin yaradılması vasitəsilə regionların sosial-iqtisadi inkişafında klasterlərin əhəmiyyətini əsaslandırmaq;

- potensial emal sənayesi klasterini mezoiqtisadi bir quruluş kimi öyrənmək, onun inkişaf problemlərini tədqiqat məqsədilə formalaşdırmaq və onların həlli yollarını hazırlamaq;

- emal və aqrar sənaye komplekslərinin inkişafının qarşılıqlı əlaqələrini, ümumi cəhətlərini və xüsusiyyətlərini, Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsindəki rolunu müəyyən etmək;

**Tədqiqatın metodları.** Dissertasiya işinin nəzəri və metodoloji əsasını neoklassik məktəbin nəzəri yanaşması, iqtisadi qloballaşma nəzəriyyələri, xüsusən də texnoloji fərqlər nəzəriyyəsi təşkil edir.Bu nəzəriyyələrin bir-birini tamamlaması, Azərbaycanın sənaye iqtisadiyyatının rəqabətyönlü və davamlı inkişafının təmin olunması kontekstində xüsusilə vacib olan məsələlərdən biri kimi mövcud sənaye modelinin klasterləşmə potensialını və istiqamətlərini əsaslandırmağa imkan verir.

Tədqiqatın əsas hipotezi Azərbaycanda sənaye fəaliyyətinin yeni vektorunun – klasterləşmənin həyata keçirilməsinin əsaslandırılmış elmi fərziyyəsindən ibarətdir. Burada əsas müddəa elmi, texniki və istehsal potensialının səfərbəredici birləşməsini təmin edəcək bir proses yanaşma-sından ibarətdir..

Tədqiqat zamanı sistemli və məntiqi təhlil metodlarından, elmi təhlil və sintez metodlarından, müqayisəli təhlil metodundan, iqtisadi-statistik metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Qlobal çağırışlar kontekstində sənayedə klasterlərin formalaşmasının nəzəri-konseptual aspektlərinin araşdırılaraq sistemləşdirilməsinə və hazırlı şəraitdə sənayenin inkişafında klaster siyasətinin formalaşdırılmasının konseptual prinsiplərindən istifadə zərurətinin əsaslandırılmasına ehtiyac yarandığına görə, bunun üçün ilkin sosial-iqtisadi şərtlərin dəqiqləşdirilməsi və əsaslandırılması tələb olunur;

2. Ölkəmizdə klaster strukturlarının inkişafı üzrə beynəlxalq təcrübənin öyrənilməsi, sistemləşdirilməsi, onun Azərbaycanın sənaye rayonlarında tətbiqi imkanlarının araşdırılması vacibliyi meydana çıxmışdır;

3. Azərbaycanda regional və sahələrarası klasterlərin formalaşması və təşkili kontekstində dövlətin çevik və innovativ sənaye siyasətinin prioritet istiqamətlərini üzə çıxarmaq və onları əsaslandırmaq gərəkdir;

4. Azərbaycanda sənayenin inkişafının əsas göstəricilərinin, eləcə də klasterləşmə prosesinin və aktiv sənaye klasterlərinin vəziyyətini təhlili edərək qiymətləndirməklə, sənaye klasterləşməsi prosesinə təsir edən neqativ amillərin və təhdidlərin aradan qaldırılması ilə bağlı təklif və tövsiyələrin işlənib hazırlanması zərurəti yaranmışdır;

5. Müasir dayanıqlı inkişafın və qlobal çağırışların təmin olunması zərurətindən irəli gəlməklə ölkə sənayesinin klasterləşmə potensialının reallaşdırılması istiqamətlərinin, mexanizmlərinin və dəstəklənməsinin kompleks tədqiqinə, eləcə də sənaye üzrə innovativ regional klasterin inkişafı prosesinin reallaşdırılması aspektlərinin müəyyənləşdirməsinə dərin ehtiyac yaranmışdır;

6. Ölkənin yaşıl iqtisadiyyatına dayanıqlı inkişaf standartlarının tətbiqi baxımından dövlətin yaşıl klaster siyasətinin formalaşdırması və həyata keçirməsi yönündə gələcəkdə reallaşdıra biləcəyi təşəbbüs və tədbirlərlə bağlı müvafiq təklif və tövsiyələrin işlənib hazırlanmasından daha çox yararlanmaq olar.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində əsas elmi yeniliklər kimi aşağıda-kıları qeyd etmək olar:

- sənayedə klasterlərin təşkilinin nəzəri-konseptual aspektləri araşdırılaraq sistemləşdirilmiş və müasir dövrdə sənayenin inkişafında klaster siyasətinin rolunun artırılması zəruriliyi əsaslandırılmaqla ilkin iqtisadi şərtlər müəyyənləşdirilmişdir;
- klaster strukturlarının inkişafı üzrə beynəlxalq təcrübə öyrənilərək, onun Azərbaycanın sənaye rayonlarında tətbiqi imkanları dəqiqləşdirilmişdir;
- regional və sahələrarası klasterlərin formalaşması və təşkili kontekstində dövlətin sənaye siyasətinin prioritet istiqamətləri əsaslandırılmışdır;
- sənayenin inkişafının əsas göstəricilərinin vəziyyəti təhlili edilməklə onların sənaye klasterləşməsi prosesinə təsiri dəyərləndirilmişdir;
- Azərbaycanda klasterləşmə prosesinin və aktiv sənaye klasterlərinin mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmişdir;
- ölkə sənayesinin klasterləşmə potensialının reallaşdırılması istiqamətləri, mexanizmləri və dəstəklənməsi araşdırılmaqla sənaye

üzrə innovativ regional klasterin inkişafı prosesinin reallaşdırılması aspektləri müəyyənləşdirilmişdir;

- dövlət tərəfindən yaşıl klaster siyasətinin formalaşdırılması və həyata keçirilməsi istiqamətləri ilə bağlı təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycanda sənayenin klasterləşməsi prosesləri geniş biznes maraqlarını özündə ifadə edir. Ümumiyyətlə bu sferada öyrənilən məsələlərin bir çoxu tədqiqat üçün yeni məsələlərdir. Bu baxımdan bu sahədə biznes ideyaları və layihələri, informasiyalar son dərəcə geniş və yayğındır. Bu baxımdan tədqiqat prosesində rəsmi statistik baza ilə yanaşı, Azərbaycanda sənaye əməkdaşlığının yeni təşəbbüslərini əks etdirən müasir informasiya mənbələrindən, saytlardan istifadə olunmuş və bir sıra korporasiyaların dərc olunan rəsmi məlumat mənbələrinə istinad olunmuşdur.

Dissertasiya tədqiqatının nəticələrindən regionlarda kiçik və orta müəssisələrin sənaye qruplarında iştirakının lahiyələndirilməsində, dövlət strateji proqramlarının istifadəsi və klasterləşmə fəaliyyətinin metodikasının öyrənilməsi məqsədilə, tədris və təlim proseslərində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya tədqiqatının əsas nəticələri Respublika və beynəlxalq (Rusiya) miqyaslı elmi konfranslarda məruzə olunmuşdur, həmçinin beynəlxalq prestijli (Rusiya) elmi jurnalda və Ali Attestasiya Komissiyası tərəfindən tövsiyyə olunan elmi nəşrlərdə tədqiqat materiallarından istifadə olunmaqla 11 elmi məqalə (10.5 ç.v. həcmində) dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqatın məqsəd və vəzifələrinə müvafiq olaraq dissertasiyanın strukturu giriş – 17713 işarə, 3 fəsil: I fəsil – 61164 işarə, II fəsil – 86721 işarə, III fəsil – 69129 işarə, nəticə - 19428 işarə, 128 adda ədəbiyyat və

informasiya mənbələrinin siyahısından ibarət olmaqla müəyyən edilmişdir.

Dissertasiya işinin həcmi 254.155 işarədir. Dissertasiya tədqiqatında 18 cədvəl, 17 səkil və 1 diaqram tərtib edilmişdir.

## MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS MÜDDƏALAR

Tədqiqatın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti barədə yığcam məlumat verilmişdir.

**1.Qlobal çağırışlar kontekstində sənayedə klasterlərin formalaşmasının nəzəri-konseptual aspektlərinin araşdırılaraq sistemləşdirilməsinə və hazırlı şəraitdə sənayenin inkişafında klaster siyasətinin formalaşdırılmasının konseptual prinsiplərindən istifadə zərurətinin əsaslandırılmasına ehtiyac yarandığına görə, bunun üçün ilkin sosial-iqtisadi şərtlərin dəqiqləşdirilməsi və əsaslandırılması tələb olunur.**

Bazar münasibətlərinin genişlənməsi və mübadilənin intensivləşməsi əmək bölgüsü üçün güclü impuls olmuşdur ki, bu da texnoloji vasitələrdən intensiv iqtisadi inkişaf üçün alətlər kimi istifadə edilməsini müəyyənləşdirmişdir. Sənayenin təşkilinin öyrənilməsinə institusional-şəbəkə yanaşma metodologiyasının əsasını qoyan və təşkilatı mənfəət artımını təmin edən qurum kimi təqdim edən ilk tədqiqatçılardan olan A.Marşalın mövqeyinə əsasən, bazar iqtisadiyyatı koordinasiya mexanizmi və qeyri-mərkəzləşdirilmiş qərar qəbulunun hakim olduğu böyük bir təşkilat kimi təsəvvür oluna bilər. Bu yanaşma görə firma daxili münasibətlər bütövlükdə bazar iqtisadiyyatının ayrılmaz hissəsidir.A.Marşalın klasterlərin meydana gəlməsinə dair fikirləri məkan iqtisadiyyatı və yeni iqtisadi coğrafiya kimi inkişaf etməkdə olan neoklassik istiqamətinin əsasını təşkil etmişdir.

Yeni texnologiyalar və istehsal yeniliklərinin mənimsənilməsi ilə sənaye müəssisələri şəbəkəsinin qurulmasını, məhsulların çevik

çeşidi və podratçı firmalar arasında qarşılıqlı faydalı və sıx əməkdaşlığı nəzərdə tutur. Bir çox dinamik inkişaf edən ölkələrdə kiçik, orta və iri müəssisələrin aktiv qarşılıqlı əlaqəsi getdikcə artır. Üstəlik, müxtəlif ölkələrdə istehsal-texnoloji, elmi-texniki və aparıcı baza bazasında aparıcı iri firmalar ətrafında qruplaşan kiçik və orta sahibkarlıq müəssisələrinin coğrafi cəhətdən məhdud ərazilər daxilində kommersiya əlaqələrinin uğurlu inkişafında özünü göstərən ümumi bir qanunauyğunluq aşkar edildi. M. Porterin araşdırmasına görə rəqabətli şirkətlər ümumiyyətlə müxtəlif ölkələrə təsadüfən genişlənmirlər, əksinə bir ölkədə, bəzən də ölkənin bir bölgəsində cəmləşməyə davamlı şəkildə meyillidirlər. Bu, bir və ya bir neçə firmanın dünya bazarında rəqabətqabiliyyəti əldə edərək, dərhal ətraf mühitə: təchizatçılara, istehlakçılara və rəqiblərə müsbət təsirlərini yayması ilə əlaqədardır.

İqtisadiyyat üçün klasterlər daxili bazar üçün artım nöqtələri rolunu oynayır. Klaster nəzəriyyəsinin əsas tezislərindən biri ümidverici rəqabət üstünlüklərinin kənardan deyil, daxili bazarlarda yaradılmasıdır.

Neoklassik iqtisadi nəzəriyyəyə uyğun olaraq sənayenin təşkilinin öyrənilməsinə ənənəvi sahəvi yanaşma, mahiyyət etibarilə bazar səviyyəsində iqtisadiyyatla bağlı fikirlərin ifadəsidir. Alternativ yanaşma sahə bazarını müəyyən dərəcədə firmalararası qarşılıqlı əlaqələrin nəticəsi kimi təmsil edir.Bu müddəaya əsaslanaraq, zəruri bir tədqiqat predmeti, sənaye qurumları ilə firmalararası əməkdaşlıq arasındakı qarşılıqlı əlaqənin təşkili səviyyəsinin öyrənilməsidir.

Klaster termini, şirkətlərin coğrafi yaxınlığına görə yalnız bir-biri ilə rəqabət edə bilməsi deyil, həm də bazarda hədəflərinə çatmaq üçün həm regional, həm də milli səviyyədə rəqabət qabiliyyətini artırmaq üçün əməkdaşlıq edə biləcəyini nəzərdə tutur. M. Porterin əsərlərində klaster institutu iqtisadiyyatın təşkili və inkişaf etdirilməsinin iqtisadi proseslərini müəyyənləşdirmək üçün əhəmiyyət kəsb edən, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin səviyyəsini artırmaq üçün dövlət siyasətini müəyyənləşdirən yeni bir obyektdir. Bununla birlikdə, klaster təsisatına elmi münasibətlərin getdikcə inkişaf etməsi və nəticələrin əldə olunması klasterə yanaşmada tənqidi münasibətləri də ortaya çıxarmışdır. Bəzi tədqiqatçılara görə

məkandakı sərhədləri müəyyənləşdirmək üçün klasterin hüdudları dəqiq müəyyənləşdirilməyib. İ. V. Pilipenko klasterin iki fərqli komponentini şərh edir - sektoral və ərazi. Sənaye klasteri, bir-biri ilə əlaqəli bir sıra sənaye sektorları, beynəlxalq əmək bölgüsündə ixtisaslaşmış xidmət sahələri kimi başa düşülür. Ərazi klasteri ifadəsi, eyni və ya bir-birini tamamlayan məhsullar istehsal edən, klasterdə iştirak edən firmalara bağlıdır. Bu firmalar arasında məlumat mübadiləsi təmin olunur və bununla da rəqabət qabiliyyətini artıran, eyni bölgədə yerləşən qurumları dəstəkləyən əlaqəli sənayenin coğrafi təmərküzləşmiş bir şirkətlər qrupu formalaşa bilir.

Sənaye klasterləri kiçik innovativ firmalar üçün potensial imkanlara malikdir. Təsadüfi deyil ki, bir sıra müasir beynəlxalq miqyaslı tədqiqatlarda kreativ şirkətlərin inkişafı üçün bu məsələ ilə bağlı tədqiqatçıların mövqeyilə üst-üstə düşür. Bu baxımdan qloballaşma və artmaqda olan beynəlxalq rəqabət şəraitində xırda firmaların mövcudluğunun qorunması üsulu onların hamısının klasterlərdə birləşməsidir. Bununla yanaşı, klaster institutunun tətbiqi inkişaf etməkdə olan ölkələrdə kiçik müəssisələrin inkişafı üçün həlledici ola bilər.

Klasterləşmənin inkişafı özəl sektor tərəfindən daha yaxşı idarə edilsə də, zəif özəl sektora sahib ölkələrdəki hökumətlər, infrastruktur, logistik, tənzimləyici çərçivələr, maliyyə imkanları və potensialın yaradılması və birgə texnologiya, inkişaf və innovasiyalar üçün müxtəlif proqramlar daxil olmaqla uyğun bir klasterə dəstək strukturları formalaşdıra bilər.




**Şəkil 1. Klaster əsasında formalaşan üstünlüklər (müəllifə aiddir)**

Ayrı-ayrı sənaye sahələrində klasterlərin formalaşmasının iqtisadi hərəkətverici amillərinə aşağıdakılar daxil ola bilər:

- Bazarlara yaxınlıq. Beynəlxalq nəqliyyat daşıma xərclərinin əlverişli səviyyələrinə baxmayaraq, bazarlara yaxın olmaq klasterin inkişafında vacib ola bilər (nəqli asan olmayan, müştərilərlə davamlı qarşılıqlı əlaqə tələb edən məhsulların istehsalı baxımından)
- İxtisaslaşmış əməyin təchizatı. Bir çox universitetlərdə mövcud olan ixtisaslaşmış kadr ehtiyatlarının mövcudluğu;
- Avadanlıq təchizatçılarının olması. Bir ərazidə yerləşmiş kapitaltutumlu məhsulların istehsalçıları və istifadəçiləri arasında yüksək mübadilə;
- Spesifik təbii ehtiyatların mövcudluğu;
- İstehsalda miqyas effekti. Bu cür miqyas effekti müəyyən bir bazarda yalnız az sayda zavodlara fəaliyyət imkanı verə bilər;
- İnfrastrukturun mövcudluğu. Bəzi infrastruktur növləri, həmçinin aqlomerasiyanı daha da təmin edən müəyyən nəqliyyat və ya xidmət obyektləri kimi olduqca spesifik ola bilər;

- Aşağı əməliyyat xərcləri. Firmalar və onların təchizatçıları bir-birinə yaxın fəaliyyət göstərdikdə və qarşılıqlı əlaqə tezliyi yüksək olduqda, danışıqlar və müqavilənin icrası xərcləri azaldıla bilər;
- Məlumatları əldə etmək üstünlüyü.

Klaster şirkətlərin coğrafi yaxınlığına görə yalnız bir-biri ilə rəqabət edə bilməsi deyil, həm də bazarda hədəflərinə çatmaq üçün həm regional, həm də milli səviyyədə rəqabət qabiliyyətini artırmaq üçün əməkdaşlıq edə biləcəyini nəzərdə tutur.

**2. Ölkəmizdə klaster strukturlarının inkişafı üzrə beynəlxalq təcrübənin öyrənilməsi, sistemləşdirilməsi, onun Azərbaycanın sənaye rayonlarında tətbiqi imkanlarının araşdırılması vacibliyi meydana çıxmışdır.**

Müasir dövrdə dünyanın bir çox regionlarında istehsal şəbəkəsinin fəaliyyəti və əsaslı inkişafı üzrə mühüm təcrübə mühüm əhəmiyyət kəsb edir. Xüsusən də Aİ və ABŞ,eləcə də Çin vəbir çox inkişaf etmiş və eləcə aparıcı istehsal şirkətləri mövcud klaster əməkdaşlığının formalarını genişləndirmişlər.

Klasterlər sayəsində əksər Avropa bölgəsi bir çox sahələrdə rəqabət sahəsində üstünlüklərini inkişaf etdirməyi bacarmışlar: Londonda maliyyə mərkəzi və Antverpen ərazisində neft-kimya klasteri, Hollandiya ərazisində çiçəkçilik klasteri, Danimarka -İsveç sərhədində əczaçılıq klasteri deyilənlərə misal ola bilər.

Dünyanın bir çox ölkələrinin sənaye klasterləri qruplarının formalaşması inkişafı təcrübəsi baxımından nəzərəçarpacaq dərəcədə fərqli bir xüsusiyyətlərə malikdir. Ənənələrinin inkişaf spesifikası baxımından əsasən sənaye qruplarının formalaşmasının altı modelinə nəzər yetirmək məqsədəuyğundur.

İtalyan modeli: rəqabət qabiliyyətini artırmaq üçün müxtəlif klaster qruplaş-masında birləşən çox sayda kiçik firmaların fəaliyyətinə əsaslanır. Model, əsaslı şəkildə fərqlənən və tələb dalğalanması olan aşağı texnoloji səviyyəli məhsullar üçün tətbiq edilir.

Yapon modeli zəncirin fərqli mərhələlərində əksər tədarükçünü birləşdirərək geniş miqyaslı bir istehsal ilə lider şirkətin ətrafında

cəmləşir; texnoloji cəhətdən fərqli məhsulların istehsalı məqsədilə tətbiq olunur.

Fin modeli çox güclü bir araşdırma və inkişaf sektoru, inkişaf etmiş təhsil sistemi baxımından dəstəklənən yüksək bir səviyyəli bir innovasiyalarla xarakterizə olunur. Biznesin beynəlmiləlləşdirilməsi prosesini özündə birləşdirir. Bu, nisbətən az təbii ehtiyatlara malik və ixracyönümlü kiçik kompakt ölkələr üçün tətbiq olunur.

Şimali Amerika modeli müəssisələr arasındakı rəqabəti gücləndirir; istehsal prosesi yaxın əlaqələrin qurulmasını nəzərdə tutmadıqda tətbiq olunur. Klasterin təchizatçıları arasındakı rəqabət və kütləvi istehsal hesabına, baş şirkət son məhsulun aşağı qiymət səviyyəsinə nail olur.

Hind-Çin modeli: bu tip klasterləşmədə əsas rolu dövlət oynayır. Əsas diqqət müasir texnologiyalar gətirən və dünya bazarlarına çıxışı təmin edən xarici investisi-yalara yönəldilir.

Türkiyə Respublikasında klasterləşmənin fəaliyyəti birinci olaraq 9-cu Beşillik İnkişaf Planında, birgə araşdırma, müəssisələrin oxşar təchizat və marketinq sahəsində fəaliyyətlərinə daha çox əhəmiyyət vermək və fiziki infrastrukturların ehtiyaclarını ödəyərək şəbəkələr qurmaq və eyni zamanda qruplaşma təşəbbüslərini dəstəkləmək məqsədi daşıyır. Təyin edilmiş sənaye bölgələrində olan müəssisələr və mövcud olanları bəhs edilən bölgələrə transfer etmək təşviq edildi. Burada klasterləşmənin inkişaf etməsi ölkə ərazisinin daha böyük hissəsini təşkil etmişdir .

Klaster siyasətinin əsaslı həyata keçirilməsi Rusiya Federasiyasının gündəmində vacib yer tutmuşdur. Real klaster təşəbbüslərinin bir hissəsi müxtəlif dövlət proqramlarının çərçivəsində dəstəklənməkdədir. Bu günkü gündə Rusiya Federasiyasının özündə federal səviyyədə olan klasterlərin təşkili və inkişafı məqsədilə vahid real mexanizm vardır. RF-in Sənaye və Ticarət Nazirliyinin bütün sənaye qruplarına olan dəstək proqramına görə dəstəklənən sənaye qruplarından bir çoxu regionlararasıdır, bu isə bir çox bölgədən sənaye müəssisələrinin labüd iştirakıyla yeni əməkdaşlılar şəbəkələrinin yaradılmasına və genişləndirilməsinə, istehsal edilən məhsulların satış miqyasını genişləndirilməsinə, eyni zamanda mövcud bölgələrarası qarşılıqlı əməkdaşlıq əlaqələrinin nəzərə alınmasına imkan yaradır.

Avropa Klaster Absservatoriyası araşdırmalarında ənənəvi sənayelərin birləşməsində formalaşmış on əsas inkişaf etmiş sənaye sahələrini müəyyən etmişdir. Bu sənaye sahələrinin fəaliyyəti bir sıra müasir meyllərlə və elmi texniki əlaqələrlə xarakterizə olunur. Avropa məkanında inkişaf etmiş sənaye sahələrinin mühüm fəaliyyət siferası əsasən üç kateqoriyaya bölünür:

- Almaniyanın cənub hissəsindən Benilüks vasitəsi ilə İngiltərənin cənub sərhəddinə qədər dar zolaqda yerlşmiş Avropaya məxsus ənənəvi iqtisadi mərkəzi:
- Danimarkadan bir başa İsveçin qərbinə qədər və Stokholmdan bir xətt boyunca Finlandiyanın cənubuna,oradan da Helsinkiyədək qərbi və mərkəzi Baltikyanı ərazidə Avropanın innovasiya liderləri;
- Ölkə əhalisinin sıxlığının faydalarının ən yüksək olduğu başqa Avropa şəhərlərinin mərkəzləri.

Son on il ərzində Avropada klaster fəaliyyətində baş verən dəyişikliklərə diqqət yetirsək, qeyd etmək olar ki, bütün bölgələrdə klaster proqramlarına malik olmaq istəyindən bölgənin sektorlarının yüksək ixtisaslaşmış klaster proqramlarının inkişafına yönəldilmişdir. Avropada kreativ sənayenin, rəqəmsal sənayenin və ekoloji texnologiyalar sənayesinin ən yaxşı regional klaster qrupları üzrə aşağıdakı bölgələr fərqlənir.

**Cədvəl 1.**

**Avropada kreativ sənayenin ən yaxşı regional klaster qrupları**

| Ölkə | Region (NUTS II) | Regiona təltif olunan ulduz sayı |
|---|---|---|
| Norveç | Oslo və Akershus | 4 |
| Fransa | Paris bölgəsi | 3 |
| Böyük Britaniya | Daxili London | 3 |
| Almaniya | Yuxarı Bavariya | 3 |
| Böyük Britaniya | Burks, Bucks və Oxon | 3 |

***Mənbə:*** *European Cluster Panorama (2014) European Cluster Observatory report, October, p. 40.*

Avropa məkanında aparılan araşdırma sorğusunda əldə edilən cavablar, problemləri həlli üçün aşağıda qeyd edilən strateji prioritetləri bilavasitə ortaya qoyur.




**Şəkil 1. 2022-ci ildə Avropa İttifaqında klaster qruplarının əsas strateji prioritetləri**

Nəzərdən keçirilən təcrübələr yüksək texnologiyaların müasir istehsalının yalnız üfüqi, regional və şaquli inteqrasiya proseslərinə əsaslana biləcəyini təsdiqləyir. Onlar Azərbaycan sənayesinin inkişafı üçün xüsusilə aktual olmaqla texnoloji platformaların inkişaf etdirilməsində obyektiv zərurət kimi qəbul edilir.

**3.Azərbaycanda regional və sahələrarası klasterlərin formalaşması və təşkili kontekstində dövlətin çevik və innovativ sənaye siyasətinin prioritet istiqamətlərini üzə çıxarmaq və onları əsaslandırmaq lazımdır.**

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi strategiyası sənaye inkişafını iqtisadi siyasətinin prioritet istiqamətinə çevirmişdir. Azərbaycanda sənaye inkişafının təşəkkülünə dair iqtisadi mənbələrdə

emal sənayesinin çoxsahəli inkişafı qeyd olunur. Ölkənin təbii şəraiti müxtəlif sənaye istehsalı sahələrinin yaradılmasına imkan vermişdir. Öz növbəsində zəngin təbii sərvətlər, ən müasir enerji və nəqliyyat infrastrukturu, yüksək ixtisaslı kadr potensialı yeni sənaye layihələri üçün əsas şərtlər hesab olunur.

Hazırda ölkəmizin yüngül sənayesində, məsələn, toxuculuq və geyim istehsalı sənayesində fəaliyyət göstərən 264 müəssisədən 66,7 faizi mikro, 17 faizi kiçik müəssisədir. Belə müəssisələrin hər birində müvafiq olaraq 10 nəfərə qədər və 11-50 nəfər işçi çalışır. 2023-cü ilin statistik məlumatına görə orta və iri müəssisələrin sayı 43-dür. Həmin iri müəssisələrlə texnoloji əlaqəyə malik müəssisələrin bazasında müstəqillikləri qorunmaqla toxuculuq klasterləri yaratmaq mümkündür.

Sənaye klasterlərinin formalaşdırılmasının əsas ideyası elmi cəhətdən əsaslandırılmış və texnoloji cəhətdən mümkün olan kompleks həllər, eləcə də kommersiya mexanizmləri yaratmaq, sənayenin inkişafı üçün innovativ bir strategiyanın həyata keçirilməsi üçün şərait yaratmaq və bununla da onun rəqabət qabiliyyətini artırmaqdır.

Azərbaycanda pambıqçılığın inkişafına dövlət dəstəyi çərçivəsində pambıq istehsalçılarına emal müəssisələrinə satılan hər kiloqram xam pambığa görə subsidiyalar ayrıldı. Bu addımların nəticəsi olaraq Azərbaycanda pambıqçılığın dirçəldilməsi əkin sahələrinin genişləndirilməsi və hər hektardan pambıq məhsuldarlığının artırılması yolu ilə həyata keçirilir. Pambıqçılıqda Azərbaycan Türkiyə, Yunanıstan, Çin və Avstraliya kimi ölkələrlə əməkdaşlıq edir ki, bu da tekstil məhsullarının istehsalı və ixracı üçün ciddi imkanlar açır. Qeyd olunan ölkələrin sənaye təcrübəsi və texnoloji üstünlükləri Azərbaycanda pambıq istehsalının klaster şəbəkəsinin yaradılmasına töhfə verə biləcək əsas amillərdən biridir.

Emal sənayesi müəssisələrinin fəaliyyətinin müasir meyllərini və bu sırada toxuculuq sənayesi müəssisələrinin fəaliyyətinin əsas göstəricilərini aşağıdakı cədvəllər əsasında nəzərdən keçirmək olar.

**Cədvəl 2.**

**2010-2023-cü illərdə Azərbaycanda emal sənayesinin əsas göstəriciləri**

| Göstəricilər | 2010 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 1909 | 2034 | 2330 | 2515 | 2777 | 3130 | 4691 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 28,0 | 47,7 | 47,0 | 37,3 | 55,2 | 86,4 | 67,3 |
| Ölkədə istehsal edilmiş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 15,9 | 21,9 | 25,1 | 31,8 | 28,8 | 21,0 | 27,3 |
| Əsas kapitala investisiyalar, mln. manat | 510,2 | 756,8 | 2466,4 | 2610,5 | 2018,0 | 1202,2 | 916,8 |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan nvestisiyaların payı, % | 11,9 | 8,9 | 26,7 | 28,8 | 26,9 | 16,8 | 10,9 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Statistik məlumatlara əsasən, ölkədə istehsal edilmiş sənaye məhsullarının ümumi həcmində emal sənayesi sahəsinin payı son 13 ildə 15,9 faizdən 27,3 faizə yüksəlmişdir. Bu müddət ərzində toxuculuq sənayesinin payı isə 0,1 faizdən cəmisi 0,6 faizə yüksələ bilmişdir. Bu sahədə vəziyyətin yaxşılaşdırılması və həlli toxuculuq sənayesinin inkişafında sənaye kooperasiyası formalarının inkişafını tələb edir.Eyni zamanda, mövcud problemlər fikrimizcə, dövlət və yerli hakimiyyət orqanları tərəfindən regional sahələrarası klasterlərin inkişafı yolu ilə qismən həll oluna bilər ki, bunun əsasını aşğıdakılar təşkil edə bilər:

a) regional sahələrarası klasterlərin institusional inkişafına

kömək etmək:

b) Tekstil klasterinin iştirakçıları arasında qarşılıqlı səmərəli informasiya əlaqəsinin qurulması

c) Tekstil klasterinin iştirakçıları arasında əməkdaşlığı stimullaşdırmaq üçün tədbirlərin həyata keçirilməsi;

b) rəqabət qabiliyyətinin artırılmasına və yüngül sənayedə müəssisə və təşkilatlar arasında qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılmasına yönəlmiş layihələrin həyata keçirilməsinə kömək.

Ölkənin sənaye siyasətinin strateji əhəmiyyətini təşkil edən məsələlərdən biri də regionların və ucqar bölgələrin inkişafı və sənaye potensialından səmərəli istifadə olunmasıdır. Uzaq bölgələrdə sənaye müəssisələrinin klasterlər və sənaye parklarının fəaliyyətinə çıxışı və genişləndirilməsinin təmin edilməsi ilk növbədə sənaye siyasətinin bir sıra spesifik regional məsələlərinin həllini tələb edir. Qeyd etmək lazımdır ki, ölkənin ucqar coğrafi ərazilərində sənaye parkı və klasterləri planlaşdırılmır. Nəzəri baxımdan, aqrar sənayedə klasterləşmə kənd yerlərinə daha asanlıqla uyğunlaşdırıla bilər, ancaq bir daha konkret ixtisaslaşma kontekstinə və potensial tərəfdaş qurumlara baxmaq lazımdır.

**4.Azərbaycanda sənayenin inkişafının əsas göstəricilərinin, eləcə də klasterləşmə prosesinin və aktiv sənaye klasterlərinin vəziyyətini təhlili edərək qiymətləndirməklə, sənaye klasterləşməsi prosesinə təsir edən neqativ amillərin və təhdidlərin aradan qaldırılması ilə bağlı təklif və tövsiyələrin işlənib hazırlanması zərurəti yaranmışdır.**

Müasir mərhələdə sənayenin prioritet sahələrinin texnoloji bazasının yüksək səviyyədə təşkili və idarəetmənin inkişaf etdirilməsi sənaye siyasətinin strateji məqsədlərini təşkil edir. Azərbaycanda həyata keçirilən yüksək əlavə dəyərli sənaye layihələrinin maliyyələşdirilməsi və dəstəklənməsi yeni vəzifələrlə müəyyənləşir. Bu baxımdan sənaye istehsalında aşağıdakı vəzifələrin həlli aktuallaşır:

- iri sənaye firmalarının birbaşa investisiyalarının və texnologiyaların Azərbaycana cəlb edilməsi və qeyri-neft sahəsində yeni imkanlar formalaşdırmaq;
- iqtisadiyyatın qeyri-neft sektorunda klasterləşmənin inkişafına

töhfə verə bilən tədqiqat layihələrinin stimullaşdırılması;

- klasterləşmə imkanlarının yaradılması ilə yanaşı, iqtisadiyyatının inkişafına, habelə iqtisadi şaxələndirməyə və idxal əvəzləyici proseslərə dəstək vermək.

Sənaye istehsalı müxtəlif sahə məhsulları ilə xarakterizə olunur. 2023-cü ildə sənaye məhsulu 67 faizi mədənçıxarma sektorunda, 27,4 faizi emal sektorunda, 4,7 faizi elektrik enerjisi, qaz, istilik və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların daşınması, təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Zənnimizcə, sənaye istehsalının bütün sahələri klasterləşmə əhəmiyyəti daşımasa da, sənaye sahələrinin inkişafı klasterlərin təşkili baxımından zəruri infrastruktur və xidmət potensialı deməkdir.

Sənayenin klasterləşmə təşəbbüslərinin həyata keçirilməsi ilk növbədə investisiya resurslarının və texnoloji layihələndirmələrin tətbiqindən, investorların inamından və dövlətin aparıcı siyasətindən asılıdır. Azərbaycanda biznes mühitinin mühüm tərəflərini aşağıdakı kimi ümumiləşdirməklə nəzərdən keçirmək olar. .

**İş mühitinin güclü tərəfləri:**
- Siyasi və sosial sabitlik
- İnfrastruktur
- Əmək haqqı xərclərinin əlverişliyi
- İqtisadi siyasətin proqnozlaşdırılması
- Ölkədə miqrasiya siyasəti

**İnvestorları cəlb edən amillər:**
- Daxili bazar
- Strateji tərəfdaşlıq
- Sərhəd bölgələrinə / sərbəst ticarət bazarlarına çıxış
- Aralıq məhsullara və təchizatçılara çıxış
- İstehsalın aşağı xərc səviyyəsi

**İnvestorlar üçün iş mühitinin zəif tərəfləri:**
- Qanunvericilik bazasına tələblər
- Maliyyə resurslarına çıxış
- Peşə Təhsili və Təlimi Sektorunun keyfiyyətinin aşağı səviyyəsi
- Ödəniş etikası və nizam –intizamı

**İş mühitinə təsir edən amillər:**
- COVID-19 karantin məhdudiyyətləri
- Dağlıq Qarabağda və ətrafında hərbi eskalasiya
- Neftin qiymətinin qeyri -sabitliyi
- Beynəlxalq və regional təşkilatların iqtisadi tələbləri

**Şəkil 2. Azərbaycanda biznes mühitinin əsas cəhətləri və amilləri (müəllif tərtibatında)**

Şəkildən göründüyü kimi, investorlar üçün iş mühitinin zəif tərəflərindən biri peşə təhsili və təlimi sektorunun keyfiyyətinin səviyyəsinin müasir tələblərdən geri qalmasıdır.

Sənayedə klasterləşmənin uğurlu həlli məsələlərindən birini məhz peşə hazırlığı səviyyəsi və müasir peşə bacarıqları səviyyəsinə nail olunması təşkil edir. Qeyd edək ki, işçilərin müasir ixtisaslara, peşə bacarıqlarına və səriştələrə yiyələnməsi əsas hazırlıq məsələlərini təşkil edir.

Azərbaycanda dövlət tərəfindən yaradılan investisiya həllərinin ən əhəmiyyətli mexanizmi kimi AİŞ-in sənaye istehsalının klasterləşməsində AİŞ-in imkanları və tərəfdaşlıq praktikası nəzərə alınaraq qeyri-neft sənayesində potensial istiqamətləri reallaşdırmaq məqsədəuyğundur. Xüsusilə aşağıdakı amillərin əhəmiyyətini xüsusilə qeyd etmək olar:

- ✓ Dövlət müəssisələri və AIŞ arasinda səmərəli koordinasiyanin təşkili;
- ✓ Beynəlxalq kapital bazarlarına çixiş;
- ✓ Beynəlxalq investorlara layihənin təqdimatı bacarığı və beynəlxalq biznes əlaqələrinin yaradılmasına dəstək;
- ✓ Portfel şirkətlərdə korporativ idarəetmə təcrübələrinin tətbiqi və bazar araşdırması, maliyyə modeli və vergilər üzrə geniş təcrübə.

Sənaye şaxələndirilməsi ənənəvi sənaye sahələri ilə yanaşı ən müasir istehsal güclərinin yaradılmasını tələb edir. Bu baxımdan yeni yüksək texnologiyalı obyektlərin inşası sənayeləşmənin vacib bir istiqamətidir.Qeyd etmək lazımdır ki, hazırda elektron avadanlıq istehsalı və əczaçılıq məhsullarının istehsalının genişləndirilməsi üçün yeni imkanlar nəzərdən keçirilir.

**5. Müasir dayanıqlı inkişafın və qlobal çağırışların təmin olunması zərurətindən irəli gəlməklə ölkə sənayesinin klasterləşmə potensialının reallaşdırılması istiqamətlərinin, mexanizmlərinin və dəstəklənməsinin kompleks tədqiqinə, eləcə də sənaye üzrə innovativ regional klasterin inkişafı prosesinin reallaşdırılması aspektlərinin müəyyənləşdirməsinə dərin ehtiyac yaranmışdır;**

Sənaye klasteri siyasətində innovasiya sistemində iştirak edən əsas aktorları, yəni sənayeni, dövlət qurumlarını və elmi qurumları

birləşdirmə yolları barədə düşünülməsi xüsusilə önəmlidir. Günümüzdə müvafiq aktorlar arasında güclü qarşılıqlı əlaqələrin qorunub saxlanılması yeni texnologiyaların tətbiq edilməsi üçün olduğu qədər innovasiyalar üçün də vacibdir.Uğurlu bir klaster və ya texnopark üçün bir vahid təşkilatı plan və ya model yoxdur. Təcrübə göstərir ki, siyasətçilər bir ölkənin müqayisəli üstünlüyünə diqqət yetirməlidirlər. Təbii ehtiyatların üstünlük təşkil etdiyi iqtisadiyyatlarda sahibkarlıq mədəniyyəti zəif ola bilir, bunu inkişaf etdirmək gənc və istedadlı insanlar üçün imkanlar və modellər yaratmaq tələb olunur. Texnoloji park inkubator nümunələri yaxşı bir yanaşmadır.

Ümumiyyətlə, klaster və texnopark parkı məsələsini hərtərəfli dövlət siyasəti və strategiyasına daxil edilməsi məqsədəuyğundur. Azərbaycanın digər təbii ehtiyalarla zəngin inkişaf etməkdə olan ölkələrdən bir əsas fərqi məhz dövlət strategiyasının, proqramlarının və dəstəyinin önəmidir.

Təcrübəli Marketing Consulting GmbH şirkəti, hökumətlərin sosial, iqtisadi və ekoloji davamlılığı təmin etmək üçün 10 rəhbər prinsipə diqqət edilməsini tövsiyə edir. Bunlardan bir çoxu Azərbaycan sənayesinin klasterləşmə potensialının həyata keçirilməsində nəzərdən keçirmək olar.

Birincisi, əvvəl olaraq uzunmüddətli fəaliyyətdə tərəfdaşların hökumətin öhdəliyini təmin edilməsinə yanaşılmasına baxılmalıdır. Məsələn, mövcud təcrübələr göstərir ki, iqtisadi zonalar və klasterlər müvəffəqiyyəti 5-10 ilə qazana bilir. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Gömrük tarifi haqqında Qanununda sənaye parklarının iştirakçıları üçün əlverişli şərtlər müəyyən edilmişdir.

İkincisi, hər bir hökumət strategiyasında müəyyən hədəflər nəzərdə tutulur. Bu prosesdə ölkələr iqtisadi potensialının, investisiya potensialının və hədəf qruplarının qiymətləndirilməsinə əsaslanmalıdır.

Üçüncüsü, klasterlər, sənaye zonaları və parklar arasındakı sinerji və əlaqələri nəzərdən keçirilməsi tələb olunur. Hər birinin fərqli bir yönümü var və planlaşdırıcılar milli və ya regional konteksti və hökumətin hədəflərini və prioritetlərini ən yaxşı şəkildə əks etdirən məsələləri diqqətlə düşünməlidirlər.

Dördüncüsü, iqtisadi, ekoloji və sosial davamlılığı lap əvvəldən nəzərə alınması.

Beşincisi, mövcud mənbələrdən və bacarıqlardan maksimum dərəcədə istifadə edilməsi. Qeyri-neft sahələrinin bir çoxunda əvvəllər mövcud olmuş sənaye komplekslərinin müxtəlif formaları vaxtı ilə mövcud olmuşdur. Məsələn, maşınqayırma, pambıqçılıq və digər sahələrdə. Lakin hazırda bu yeni bir məsələ kimi ortaya çıxmışdır.

Altıncısı, strategiya, təşviqat və tənzimləmə bazasının hazırlanması. Məsələn, bir klaster yanaşmasına uyğun təşviqlər təqdim edilməsi.

Yeddincisi, xüsusi obyektlər və ya xidmətlər və xüsusi bacarıqlara investisiya qoyuluşu. Bu investisiya və innovasiya cəlb etməyin müxtəlif yollarının araşdırılmasını tələb edir.

Səkkizincisi, zonaların və qrupların təşkili hərtərəfli iqtisadi islahatı əvəz edə bilməz. Bununla yanaşı, zonalar islahatların, siyasətlərin və ətraf mühit standartlarının sınanması üçün ideal bir imkandır.

Doqquzuncu, parkları və zonaları əməkdaşlıq etməyə və bir-birlərindən öyrənməyə təşviq edilməsi zəruridir.

Nəhayət son olaraq zonaları və parkları daha geniş iqtisadiyyata inteqrasiya edilməsi və regional inteqrasiyanı inkişaf etdirmək üçün istifadə edilməsi məqsədəuyğundur.

Azərbaycanda sənayenin klasterləşdirilməsi potensialının reallaşdırılması prosesində dövlət dəstəkləmə sistemi və stimullaşdırılma mexanizmləri indiki mərhələdə xüsusilə həlledici rola malikdir. İndi mühüm məsələlərdən biri də yeni imkanlarla bağlıdır.

Azərbaycanda sənayenin klasterləşdirilməsi potensialının əhəmiyyətli hərəkətverici qüvvəsi kiçik və orta sahibkarlıq subyektlərinin biznes imkanları və səriştələrinin yüksəldilməsidir. Azərbaycanda KOM inkişafı ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin əsas amillərindən biri hesab olunur.

Ölkə iqtisadiyyatında özəl sektorun iştirakının genişləndirilməsi və davamlı iqtisadi inkişafının təmin edilməsi məqsədi ilə kiçik və orta biznesin iqtisadi inkişafda rolunu dəstəkləyən qurumların təşkili müasir dövrün aktual vəzifələrindən biridir. Kiçik və orta biznesinin

məşğulluqda payının artırılması, rəqabət qabiliyyətinin gücləndirilməsi müasir iqtisadi siyasətin önəmli məsələləridir. KOB subyektlərinin maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, zəruri istehlak malları ilə təminatın əsasən KOB subyektləri vasitəsilə həyata keçirilməsi, KOB-ların xarici bazarlara ekspansiya imkanlarının genişləndirilməsi strateji hədəflər kimi müəyyən edilmişdir.




**Şəkil 3. Sənaye istehsalının klasterləşməsində kiçik və orta sahibkarlığın rolu: rəqabət qabiliyyətinin artırılması və effektiv koordinasiyanın tətbiqi məsələləri (müəllifin yanaşması)**

Sənaye istehsalında qarşıya qoyulmuş əsas vəzifələr dövlət dəstəyi ilə müəyyənləşir. Lakin fəaliyyət istiqamətləri və nəticələri baxımından, ilkin həlledici istiqamət kiçik və orta biznesin motivasiya tədbirləri ilə bağlı olacaq. Sənaye qrupları ilə əlaqələnmə imkanlarının inkişafı baxımından, bu tədbirlər kiçik və orta biznes subyektlərinin

fəaliyyətini stimullaşdıran mexanizmlər və alətlər vasitəsilə həyata keçirmək məqsədəuyğundur.

Təhlil prosesinin nəticələri, belə yanaşmaya əsas verir ki, müxtəlif profildə fəaliyyət göstərən biznes və sahibkarlıq qurumlarının cəlb edilməsi və səmərəli iştirakı dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi ilə müəyyən edilir, lakin öz növbəsində sahibkarlıq müəssisələrinin formalaşdırılmış biznes mühitində öz fəaliyyətini düzgün təşkili və rəqabətqabiliyyətinin artırılması ilə şərtlənir. Bu yanaşma nöqteyi-nəzərindən sahibkarların bilik və bacarıqlarının inkişafına yönəlik bir sıra dəstəkləyici tədbirlərin həyata keçirilməsi zərurəti də aktuallaşır.

**6. Ölkənin yaşıl iqtisadiyyatına dayanıqlı inkişaf standartlarının tətbiqi baxımından dövlətin yaşıl klaster siyasətinin formalaşdırması və həyata keçirməsi yönündə gələcəkdə reallaşdıra biləcəyi təşəbbüs və tədbirlərlə bağlı müvafiq təklif və tövsiyələrin işlənib hazırlanmasından daha çox yararlanmaq olar.**

Ölkə sənayesi siyasətində Sənaye 4.0 strategiyalarının həyata keçirilməsinin mühüm hədəfi kimi qeyd edilməsini nəzərə alaraq, Azərbaycan ərazisində yaşıl istehsalın vacib bir innovasiya komponenti kimi inkişaf etdirilməsi çox aktuallaşır. Azərbaycanın iqtisadiyyatı üçün bu tendensiya milli iqtisadiyyatın innovativ inkişafı üçün əhəmiyyətli potensiala malikdir. Hazırda Azərbaycan davamlı inkişafın əsas bir komponenti kimi yaşıl iqtisadiyyatın qurulması baxımından uğurlu bir siyasət yürüdür. Qlobal şəkildə iqlim dəyişiklikləri kontekstində artmaqda oaln əhalinin indiki və gələcək addımlaına cavab verəcək bir çox qida məhsullarının təmin olunması üçün dünyanın inkişaf edən ölkələrində genom texnologiyalarının və rəqəmsalların tətbiqilə ciddi şəkildə elmi araşdırmalar aparılmaqdadı. Yaşıl inqilab dövrü əsasən qlobal qida təhlükəsizliyinin davamlı artırılmasında ekstraordinar mərhələsiolaraq dəyərləndirilir. Bəhs edilən mərhələ kənd təsərrüfatı sahələrinin intensifikasiyası hesabına dünyada bütün qida məhsullarının, xüsusilə də buğda, qarğıdalı və düyü kimi dənli bitkilərin geniş istehsalının artmasıyla xarakterizə edilir.

Dünya Bankının məlumatlarına görə, bəşəriyyət hər il 2 milyard tondan çox bərk məişət tullantıları istehsal edir və 2050-ci ilə qədər bu rəqəmin 3,4 milyard tona qədər böyümə təhlükəsi mövcuddur. Buraya sənaye və kənd təsərrüfatı müəssisələrinin işlənməmiş tullantılarını da əlavə etsək, onda verilən məlumatlar xeyli artacaqdır. Eyni zamanda, McKinsey konsaltinq şirkətinin proqnozlarına görə, tullantısız istehsalın tətbiqi və təkrar emal olunan materialların istifadəsinə yönəldilmiş yeni müəssisələrin yaradılması sayəsində dünya iqtisadiyyatı 2030-cu ilədək əlavə 4,5 trilyon dollar qazana biləcək. Bu gün ən fəal "yaşıl" istehsal və təkrar emal Skandinaviya ölkələrində, ABŞ, Kanada, eləcə də Yaponiya, Çin və Koreya Respublikasında inkişaf edir.

Azərbaycanın yaşıl iqtisadiyyata keçid siyasətinin əsas məqsədi ekoloji prinsiplərə əsaslanan iqtisadi artımın formalaşmasına kömək etmək, o cümlədən təbii ehtiyatlardan iqtisadi cəhətdən səmərəli istifadə, ekoloji cəhətdən davamlı istehsal və istehlakın təşviqi, yeni (yaşıl) iş yerlərinin yaradılmasıdır.Bu baxımdan Azərbaycanda sənaye istehsalının genişlənməsinin aktual nəticələrindən biri istehsal və məişət tullantılarının artması və yenidən istifadəsi məsələləridir. Azərbaycan iqtisadiyyatının hidrokarbon istehsalından asılı olduğunu nəzərə alsaq, hökumət yaşıl iqtisadiyyata keçidin yeni yollarını tapmalıdır və ekoloji təhsilin rolunun artması bu prosesdə ümumi siyasətin tərkib hissəsini təşkil etməlidir.

Həyata keçirilən innovativ layihələr əsasən, yaşıl iqtisadiyyat strategiyası çərçivəsində Azərbaycanda əhəmiyyətli bir sənaye klasterinin necə formalaşdığının müasir nümunəsidir. Klaster quruculuğu yerli və xarici kommersiya strukturlarını və elmi təşkilatları cəlb etməklə bazar faktoru nəzərə alınmaqla ekoloji problemlərin həllini və sənaye istehsalının səmərəli inkişafını stimullaşdırır.

Azərbaycanda texnoparkların innovasiya sisteminin strukturunun əsas elementinə çevrilməsi istehsalın təşkili prosesinin sürətləndirilməsi ilə yanaşı, milli iqtisadiyyatın neft amilindən asılılığının azaldılmasına və sənayenin rəqabətliyinin müasir metodlarının tətbiqinə perspektiv imkanlar yaradır.




**Şəkil 4. Azərbaycanda sənaye parklarında biznes fəaliyyətinin inkişafının dəstəklənməsi üzrə təşkilati tədbirlər**

**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatları əsasında (müəllifin tərtibatı)

Göründüyü kimi, Texnologiyalar Parkı ərazilərində fəaliyyət göstərmiş rezidentlərə müvafiq şəkildə imtiyazlar təqdim olunur. Bu imtiyazlar özəl şirkətlərə stimullaşdırıcı şərait yaradır və onların istehsal xərclərini azaldır. Birincisi, Texnoloji Parklara cəlb olunmaqla, qeydiyyata alındıqdan sonra rezidentlər 10 il ərzində əmlak, torpaq həmçinin gəlir vergisindən azad edilirlər. Bu biznes fəaliyyəti üçün əhəmiyyətli müddət hesab oluna bilər. İkincisi, rezidentlərə idxal edilən xarici texnika, texnoloji avadanlıqlar eyni zamanda mexanizmlərə görə 7 il ərzində idxal gömrük rüsumlarından o cümlədən əlavə dəyər vergilərindən (ƏDV) azad olunurlar. Belə güzəştlərin tətbiqi Sənaye Parklarının beynəlxalq fəaliyyətini və cəlbediciliyini artırır**.**

Sənaye parklarında klasterləşmə məqsədləri cəhətdən başqa vacib məsələ istehsal proseslərində yerli həmçinin beynəlxalq əməkdaşlığa xüsusi olaraq geniş şəkildə yerin ayrılmasıdır. Texnologiyalar Parkı təkcə ölkədə mövcud olan şirkətləri deyil, həm də regionda və beynəlxalq istehsal proseslərində yüksək rəqabət qabiliyyəti ilə fəaliyyət göstərən firmaları və tədqiqat müəssisələrilə əməkdaşlığı genişləndirməlidir. Müasir beynəlxalq təcrübədə və innovasiyalar sahəsində yaranan yeniliklər ilə yaxından tanış olmaq üçün fərqli ölkələrin texnoparklarılə sıx əlaqələrin və qarşılıqlı səfərlərin təşkili önəmlidir.

**Dissertasiyanın əsas məzmumu müəllifin dərc etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. S.R.Rəhimli. Azərbaycanda sənaye klasterlərinin ölkənin sənaye siyasətində rolu. "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf perspektivləri: Məqsədlər, Vasitələr və İqtisadi İnkişafın İnklüzivliyi" mövzusunda respublika elmi konfransının materialları. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası 2020 s.13-19
2. S.R.Rəhimli. Klasterləşmənin sənayedə rolu."Dövlət İdarəçiliyində islahatların yeni mərhələsi" mövzusunda respublika elmi konfransının materialları. Bakı,Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, 2020 s.163-169
3. S.R.Rəhimli. Dördüncü sənaye inqilabının mümkün nəticələri aspektində şirkətlərin yeni təşkilati konsepsiyalarının əsas prinsipləri. AMEA İqtisadiyyat institutu. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası № 5 2021.s.23-29
4. S.R.Rəhimli. Sənaye klasterlərinin yaradılmasında əsas xüsusiyyətlər. Ümumilli lider Heydər Əliyevin anadan olmasının 98 illiyinə həsr olunmuş "Universitet reytinqi məsələlərinin əsas problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Gəncə, Azərbaycan Texnologıya Universiteti 2021 № 2 s.291-294
5. S.R.Rəhimli. Klasterlərin iqtisadi əhəmiyyəti.AMEA İqtisadiyyat institutu. AMEA-nın Xəbərləri.İqtisadiyyat seriyası №1 2021 s.207-213
6. С.Р.Рагимли. Перспективы кластеризации промышленности Азербайджана в контексте «Зелёной» экономики Материалы международной научно-практической конференции по теме «Механизм реализации стратегии социально-экономического развития государства». Дагестанский Государственный Технический Университет. 2021 с.120-123
7. S.R.Rəhimli. Müasir dövrdə dövlətin innovasiya siyasətinin mexanizmləri Azərbaycan Respublikası Maliyyə Nazirliyi "Maliyyə və uçot" jurnalı №5 2022 s.58-64
8. S.R.Rəhimli. Klasterlərin üstünlükləri və çatışmamazlıqları. Azərbaycan Turizm və Menecment Universiteti "Turizm və

qonaqpərvərlik tədqiqatları” jurnalı № 1 2022 s.80-91

9. S.R.Rəhimli.Müasir dövrdə sənaye siyasətinin yeni təməl şərtləri və problemləri. AMEA İqtisadiyyat institutu. AMEA-nın Xəbərləri.İqtisadiyyat seriyası № 1 2022 s.71-77
10. С.Р.Рагимли. Некоторые подходы к инновационному развитию и кластеризации в промышленности Азербайджана. Проблемы современной экономики «Евразийский международный научно-аналитический журнал» №1(81) 2022. с.174-177
11. S.R.Rəhimli. Sənayenin klasterləşməsinə dünya alimlərinin və ölkələrinin yanaşmaları. Azərbaycan Texnologiya Universiteti. “İnnovasiyalı iqtisadiyyat və menecment”jurnalı, №1 2022, s.125-133



Dissertasiyanın müdafiəsi 16 aprel 2025-ci il tarixində saat 10.00-da Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) nəzdində fəaliyyət göstərən BFD 4.21 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 15 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2025
Kağızın formatı: 60x84 1/16
Həcm: 39.261 işarə
Tiraj: 100